Həmzə Vəliməmmədov,
Əməkdar jurnalist



# AĞSAQQAL MÜƏLLİFLƏ İKİNCİ GÖRÜŞ

## (İMRAN ƏBİLOVUN ”DEYİLƏN SÖZ YADİGARDIR” KİTABI HAQQINDA)

**”Deyilən söz yadigardır”. Respublikada yetərincə tanınan ictimai xadim, dəyərli ziyalı, Əməkdar kənd təsərrüfatı işçisi, əli qələmli ağsaqqal İmran Əbilovun memuar ədəbiyyatı seriyasından yenicə çapdan çıxan kitabı belə adlanır. Kitab ön sözdən, girişdən, altı bölmədən ibarətdir. Nəşrin redaktoru pedaqogika üzrə fəlsəfə doktoru Şahrza Ağayev ön sözdə yazır: ”Azərbaycan xalqının özünəməxsus ata-anaya ehtiram, böyüyə hörmət, kiçiyə mərhəmət, qonaqpərvərlik, əliaçıqlıq, dostluq, yoldaşlıq, mərdlik, ədalətlilik, Vətən təəssübkeşliyi kimi milli-mənəvi keyfiyyətləri vardır. Bu baxımdan memuar qeyd olunan dəyərlərə görə şərtlənir”.**

Müəllif ”Vətənə vurğun: ömürdən xatirələr” kitabından fərqli olaraq yeni nəşrdə təkcə öz həyatından deyil, görkəmli şəxsiyyətlərdən söhbət açır. ”Dünəni, bu günü və sabahı düşünən dahi insan” essesi xalqımızın həmişəyaşar oğlu, Ulu öndər Heydər Əliyevə həsr edilmişdir. Respublika Kənd Təsərrüfatı nazirinin müavini işlədiyi dövrdə Heydər Əliyevlə görüşlərini xatırlayaraq yazır ki, onunla yol yoldaşı olmaq böyük xoşbəxtlik idi. Çox maraqlı söhbətləri vardı. Söhbətləri dövlətə, xalqa xeyir vermək məcrasında aparılırdı. Sözün əsl mənasında böyük bir tarix, canlı ensiklopediya idi. Müxtəlif ixtisas sahibləri onunla hər hansı mövzuda danışırdılarsa, o, mövzuya dair yeni bir fikir irəli sürür, müsahiblərini valeh edirdi. Mübaliğəsiz demək olar ki, Azərbaycan dilinin saflığını qoruyub bizə qaytaran Heydər Əliyev oldu. O, deyirdi: ”Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir”.

İmran müəllim Heydər Əliyevin rəhbərliyi altında işlədiyinə görə özünü xoşbəxt sayaraq yazır: ”Biz yaxşı bilirdik ki, Heydər Əliyevlə hər hansı bir məsələ və ya problem haqqında danışmaq üçün nə qədər ciddi hazırlaşmaq lazım idi. Bütün sahələr, ixtisaslar üzrə mükəmməl məlumatı vardı. Təəccüblənirdik ki, böyük dövlət işləri ilə məşğul olan bu insan nə zaman vaxt tapıb məsələni bu qədər tam dəqiqliyi ilə öyrənmişdir. Onunla adi söhbətdə hər sözünə, danışığına diqqət verməli idin. Bütün bunlar bizi öz üzərimizdə çox işləməyə öyrədirdi. Heydər Əliyev Moskvada işləyəndə də daim Azərbaycanı düşünür, ən çətin işlərdə kömək göstərirdi”.

Müəllifin sözləri ilə desək, bəli, Heydər Əliyev ölkəmizi dünənki fəlakətdən qurtardı, bu gününü qurub yaratdı, sabahı haqqında düşündü və bizə böyük miras qoyub getdi.

Oxucu kitabı vərəqlədikcə yeni ünvanlar, yeni şəxsiyyətlərlə tanış olur. Belə unudulmazlardan biri də Məmməd Əsgərovdur. Onun həyatı barədə qısa məlumat verilir. Bir neçə rayonlarda aqronom, MTS direktoru, icraiyyə komitəsinin sədri işləmişdi. 70-ci illərin əvvəlində Şəmkirə Partiya Komitəsinin birinci katibi göndərilir. Rayonun geridə qalmış iqtisadiyyatını qaldırmaqdan ötrü çox iş görür. Iki-üç il keçir, Şəmkir qabaqcıl rayonlar sırasına çıxır, iqtisadiyyatında və mədəni həyatında dönüş yaranır. Birinci katib Sosialist Əməyi Qəhrəmanı adına layiq görülür. Heydər Əliyevin etimadını qazanan Məmməd Əsgərov respublika Kənd Təsərrüfatı naziri təyin olunur. Müəllif nazirin şəxsi keyfiyyətlərindən-prinsipiallığından, sözübütövlüyündən, işçilərə qayğısından, insanpərvərliyindən misallar gətirir, faktları sadalayır.

İmran Əbilovun doğulduğu Masallı alimləri, ictimai xadimləri, təbibləri, pedaqoqları, incəsənət adamları ilə ölkəmizdə, onun sərhədlərindən uzaqlarda tanınır, bu diyara şöhrət gətirir. Müəllif onlardan bir neçəsinin keçdiyi şərəfli həyat yolunu qələmə almışdır. Şirəli Əhədov. Bu ad mənə keçən əsrin 90-cı illərindən tanışdı. Şirəli müəllim o vaxt Masallıda təhsilə rəhbərlik edirdi, mən Lerikdə. Biz təhsil məsələlərinə həsr olunan tədbirlərdə görüşürdük. Aramızda səmimiyyət vardı. El-obada qazandığı hörmətə görə Şirəli Masallı Rayon İcra Hakimiyyətinin başçısı təyin olundu. Sonra prezident aparatında məsul vəzifəyə irəli çəkildi. 70 yaşın tamamında dünyasını dəyişdi. Müəllifin Şirəli müəllimin yubileyi münasibətilə qələmə aldığı yazı kitabda yer alır.

”Nəsillərə örnək olan ömür”. On il Masallı Rayon Partiya Komitəsinin birinci katibi işləmiş Əlövsət Baxışov haqqında xatirə belə adlanır. Əlövsət müəllimlə bir yerdə işləmiş müəllif yazır: ”Yaxşı yadımdadır, Qodman kəndindən bir şikayətçi rayon icraiyyə komitəsinin sədrindən ona giley-güzar edirdi. Əlövsət müəllim dedi ki, PİK-in sədri indicə məndən xahiş elədi ki, sənə kömək edək. Əlövsət müəllim həmin adamı sakitləşdirdi. Əslində PİK-in sədri ondan heç bir xahiş etməmişdi. Şikayətçiyə dedi ki, sən sədrin qəbuluna get, köməyini əsirgəməz. Kişi qapıdan çıxan kimi PİK-in sədrinə zəng vurub dedi ki, qodmanlı filankəs səndən razıdır, indi qəbuluna gəlir, ona kömək elə”. Bu, katibin iş metodlarından biriydi.

1992-ci ildən haqq dünyasına qovuşanadək həyatını Respublika Veteranlar Şurasına bağlayan Əlövsət müəllimin bu vəzifədə xidmətləri əvəzsiz olmuşdur. O, gənclərin vətənpərvərlik tərbiyəsində, ölkədə veteranlara qayğı və diqqət sahəsində yaddaqalan işlər gördü, bu təşkilatın maddi bazasını möhkəmləndirib getdi.

Kitabda Masallının Mahmudavar kəndində boya-başa çatan ziyalı Rahib Əliyevin keşməkeşli həyat yolu ilə tanış oluruq. Rahibin uşaqlığı Ikinci Cahan müharibəsi illərinə düşüb. Sovet ordusu sıralarında xidmətdə olub, Odessada Hərbi Aviasiya Məktəbini bitirib. Ancaq ixtisası üzrə işləməyib, Vətənə qayıdıb Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsində ali təhsil alıb. Aspiranturaya daxil olub, elmi işini tamamlayıb, elmlər namizədi alimlik dərəcəsi alıb. O, hazırda Beynəlxalq Universitetdə çalışır, bir neçə elmi məqalənin, bir dərs vəsaitinin müəllifidir. Oxucu Rahib müəllimin xeyirxah işlərindən xəbər tutur.




Kitaba jurnalist Əlihüseyn Şükürovun İmran müəllimin qardaşı, prezident təqaüdçüsü Şirvan barədə yazı da daxil edilmişdir. Şirvan Əbilov 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransının nümayəndəsi olmuş, Ulu öndər Heydər Əliyevin təklifi ilə Siyasi Şuraya üzv seçilmişdir. O, cənub bölgəsində YAP-ın təşkilatlanmasında xidmətlər göstərmiş, Masallıda rayon təşkilatının ilk sədri seçilmişdir. 85 illik yubileyi iki il öncə rayon ictimaiyyəti tərəfindən qeyd edilmişdir. Ağsaqqal fəaliyyətini bu gün də davam etdirir, dövlətimizə və dövlətçiliyimizə sədaqətini ahıl yaşında da göstərir.

”O yaylaqların, dağların, dərələrin, bulaqların, çadırların adlarını və kimə məxsus olduğunu bilərdi”. Bu sətirlər kitabdakı ”Xatirələrdə yaşayan insan” yazısındandır. Kəlbəcər Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Təhmiraz Cəfərov haqqındadır. Sonralar tale elə gətirir ki, Təhmiraz doğma rayonunda partiya komitəsinin katibi seçilib. Bu rayonun tanınmış ziyalıları İnqilab Nadirovun, Qənbər Qurbanovun, Təhmiraz Cəfərovun və Vəliyeddin İsmayılovun Murov-Göygöl yolunun çəkilməsində böyük xidmətləri olub, camaat tərəfindən qiymətləndirilib. Müəllif o yerlərin erməni qəsbkarlarının tapdağı altına düşməsini ürək ağrısı ilə qələmə alır. Kəlbəcərin mütləq alınacağını, Təhmirazın ruhunun şad olacağını deməyi də unutmur.

”Torpaq adamı” da maraqla oxunan yazılardandır. Bu adı Nadir Hüseynov əməli fəaliyyəti ilə qazanmışdı. Onun haqqında danışmağı müəllif özünün mənəvi borcu sayır, müstəsna xidmətlərindən söhbət açır. Heydər Əliyevin rəğbətini qazanan Nadir Hüseynov Kənd Təsərrüfatı nazirinin birinci müavini təyin edilir. Nazir müavini torpaqların qorunması məsələsini gündəmə gətirir. Müşavirələrin birində əkin yerlərində tikinti aparılmasına etirazını bildirir. Heydər Əliyev onun fikri ilə razılaşır, tikintinin dayandırılmasına göstəriş verir. Beləliklə, respublikada əkinəyararlı torpaqlarda obyektlərin salınmasının qarşısı alınır.

Kitabın dördüncü bölməsinə Prezident İlham Əliyevin hakimiyyətdə olduğu illərdə İmran Əbilovun respublika mətbuatında çap olunmuş məqalələri toplanmışdır. Müəllif qeyd edir ki, bu dövrdə Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artmış, dövlətimizin başçısı güclü lider və diplomat kimi tanınmışdır. Azərbaycan sabit ölkədir, sülh və əmin-amanlığın tərəfdarıdır. Elə buna görə də respublika tərəqqi yolundadır. Regionların inkişafına dair proqramlar uğurla həyata keçirilir, əhalinin gün-güzəranı ilbəil yaxşılaşır, islahatlar müvəffəqiyyətlə yerinə yetirilir. Bir bölgənin timsalında öz əksini tapır.

**Müəllifin 2017-ci ildə ”Araz” nəşriyyatında çapdan çıxmış, oxucu auditoriyasının diqqətini çəkən ”Vətənə vurğun: ömürdən səhifələr” memuarı barədə rəylər yeni nəşrdə yer almışdır. ”Söz” jurnalının baş redaktoru Sevda xanım Əlibəylinin, poliqrafçı alim Şəddat Cəfərovun, pedaqoqika üzrə fəlsəfə doktoru Şahrza Ağayevin, filologiya üzrə fəlsəfə doktoru Sadiq Murtuzayevin, filologiya elmlər doktoru, professor Qəzənfər Paşayevin, bu sətirlərin müəllifinin, yazıçı-publisist Ələşrəf Niftiyevin, jurnalist Əlihüseyn Şükürovun mətbuat səhifələrindəki yazıları müəllifin şəxsiyyətinə, qələminə hörmət və ehtiramdan xəbər verir. Bu yazıya professor Qəzənfər Paşayevin sözləri ilə nöqtə qoymaq istəyirəm: ”Nə yaxşı ki, xalqımızın İmran Əbilov kimi dəyərli oğulları, nümunə ola biləcək şəxsiyyətləri vardır. Nə yaxşı ki, belələrini Yaradan xalqa bəxş edir”.**